**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışları, xüsusən də məmurların neqativ fəaliyyətləri ilə bağlı tənqidi qeydləri hər zaman ictimaiyyət tərəfindən böyük rəğbət və maraqla qarşılanıb. Prezident daim məmurlardan onların qarşısına qoyulmuş vəzifələrə yüksək səviyyədə yanaşmağı tələb edir. Bu fikirləri Azərbaycan Vətəndaş Hərəkatının İdarə Heyətinin üzvü, siyasi şərhçi Mübariz Göyüşlü bildirib.**

# Prezidentin çıxışları ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır

O deyib ki, məmurun işi xalqa xidmət etmək, bununla da dövlətin və dövlət başçısının ondan gözləntilərini doğrultmaqdır. Məmur fəaliyyət göstərərkən dövlət maraqlarını hər şeydən üstün tutmalıdır. Torpaqlarımız, xüsusən də Şuşa işğaldan azad edildikdən sonra buradakı quruculuq-abadlıq işlərinin miqyası, keyfiyyəti, sürəti Prezident İlham Əliyevin xüsusi nəzarətindədir. Onun işğaldan azad olunmuş yerlərdə xüsusi nümayəndələrin təyin edilməsi barədə fərmanı, məmurlara Şuşa məsələsində etdiyi xəbərdarlıq və digər məsələlər bunu əyani şəkildə göstərir.

Dövlət başçısı da, xalqımız da şəhidlərimizin qanı ilə suvarılmış, qazilərimizin əziyyəti ilə azad eidlmiş Şuşanın, Qarabağın digər yerlərinin müqəddəslik ruhunu qoruyurlar. Təsadüfi deyildir ki, dövlət başçısı son müsahibəsində xüsusi vurğuladı ki, mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı yox. Orada görüləcək işlər də, atılacaq hər bir addım da şəhidlərin, qazilərin qəhrəmanlıqları göz önünə gətirilərək edilməlidir. O torpaqlara şəhid qanı qarışıb, ona görə də Vətən olub, müqəddəs olub, hamımızın gözündə



xüsusi məna daşıyır.

Cənab Prezidentin də dediyi kimi, biz hamımız Şuşanı dirçəldəcəyik. Şuşa öz gözəlliyi və əzəməti ilə xalqımızın qəlbini oxşayacaq, hansısa məmurun şəxsi istəklərini deyil. Şuşa qədimliyin və müasirliyin vəhdəti olacaq. Oradakı yaşayış, təhsil, mədəniyyət obyektlərinin və s. bərpası və tikintisi də, görülən işlər də, xalq tərəfindən sevgi və məhəbbətlə icra ediləcək, hansısa məmur tərəfindən plansız və məqsədsiz deyil. Buna görə dövlət başçısı hər kəsi fəallığa səslədi, bütün vətəndaşları aktiv olmağa çağırdı. İctimai nəzarət tədbirləri daha da artırılmalıdır.

M. Göyüşlü bildirib ki, biz də dövlət başçısının səsinə səs verməliyik, Şuşamızı, Qarabağımızı həm qorumalı, həm də inkişaf etdirməliyik. Məmurlar Prezidentin sərt xəbərdarlığından nəticə çıxarmalıdırlar. Vətəndaşlar sosial şəbəkələrdə, ziyalılar mediada fikirlərini gündəmə gətirərək, dövlət başçısının haqlı mövqeyini dəstəklədilər. Dövlət başçısı çıxışında bu cür xüsusi məqamlara toxunmaqla vəziyyəti bütün açıqlığı ilə diqqətə çatdırdı. Bu çıxışlar xalq–Prezident birliyini ehtiva etməklə yanaşı, bizim qarşımızda yeni vəzifələr qoyur. Vəzifəsini layiqincə yerinə yetirə bilməyən məmurlara qarşı mübarizədə vətəndaş cəmiyyəti fəalları, QHT, media, siyasi partiya və s. qurumların təmsilçilərinin göstərdikləri qətiyyətli münasibət dövlətimizə dəstəkdir. Bununla biz həm dövlətimizi daha da inkişaf etdirər, həm şəffaf və dayanıqlı cəmiyyət qurar, həm də aramızda narazılıq yaratmaq istəyənlərin cavabını layiqincə vermiş olarıq.

***Anar TURAN, "Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 5 fevral.- S.4.